## Veteranlar haqqında AR qanunu

«Veteranlar haqqında Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarının elan edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 1994-cü il 28 iyun tarixli 841 nömrəli Fərmanı ilə qüvvəyə minmiş «Veteranlar haqqında», 1997-ci il 4 noyabr və 2006-cı il 25 aprel tarixli Fərmanı ilə qüvvəyə minmiş «Veteranlar haqqında Azərbaycan Respublikası Qanununda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının Qanunlarına və «Müharibə veteranı», «Silahlı Qüvvələr veteranı» və «Əmək veteranı» adlarının verilməsi qayda və şərtləri haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 22 sentyabr tarixli 216 nömrəli Qərarına əsasən, **Azərbaycan Respublikasının Müdafiə, Daxili İşlər, Milli Təhlükəsizlik, Ədliyyə Nazirlikləri, Dövlət Sərhəd və Xüsusi Dövlət Mühafizə Xidmətləri** tərəfindən müvafiq veteran adlarının və vəsiqələrin verilməsi nəzərdə tutulmuşdur.
Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnaməsinə əsasən, «hərbi xidmətdən ehtiyata və istefaya buraxılmış vətəndaşlara və digər şəxslərə onların və ya onların ailə üzvlərinin Azərbaycan Respublikasında və digər dövlətlərin ərazilərində döyüş əməliyyatlarında iştirakını təsdiq edən, eləcə də yaralanmalarının, travma və kontuziya almalarının, xəstəliklərinin hərbi xidmətlə əlaqəsinin müəyyən olunması zamanı arxiv materiallarının axtarılmasında kömək edilməlidir».

## Veteranlar haqqında
AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun 1992-ci il dekabrın 3-də Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin 46-cı sessiyasının qəbul etdiyi prinsiplərə uyğun olaraq müharibə, əmək, silahlı qüvvələr, daxili işlər, sərhəd xidməti və*, dövlət təhlükəsizliyi və xarici kəşfiyyat*orqanları veteranlarının statusunu, veteranlar barəsində Azərbaycan Respublikası dövlət siyasətinin əsaslarını təsbit edir. Qanun veteranlara verilən güzəştlərin şamil edildiyi şəxslərin dairəsini, habelə veteran təşkilatlarının fəaliyyət sahəsini tənzimləyir, veteranların öz fiziki imkanlarından asılı olaraq cəmiyyət həyatının bütün sahələrində fəal iştirak etməsi üçün təminatları müəyyənləşdirir. [1]

Maddə 1. **Veteranlar barəsində dövlət siyasəti**

Veteranlar barəsində dövlət siyasəti aşağıdakı əsaslar üzərində qurulur:
sosial və hüquqi müdafiənin təmin edilməsi;
əmək haqqının minimum səviyyəsindən az olmayan dolanacağa təminat verilməsi;
fiziki və ruhi sağlamlıq, fəal uzunömürlülük üçün şərait yaradılması;
yaşayış sahəsi ilə təminat;
hər bir veterana zəruri tələbatını təmin edən səviyyədə müxtəlif növ sosial xidmətlər göstərilməsi;
əmək hüququnun heç bir məhdudiyyət qoyulmadan, sağlamlıq vəziyyətinin imkan verdiyi səviyyədə həyata keçirilməsi, ictimai faydalı fəaliyyətdə iştirak etmək üçün lazımi şərait yaradılması;
veteran təşkilatlarının fəaliyyətinə kömək göstərilməsi, veteranların bütün cəmiyyətə və xüsusən onlara aid siyasətin və proqramların hazırlanması və həyata keçirilməsi işinə bilavasitə cəlb edilməsi,

Maddə 2. **Veteranlar haqqında Azərbaycan Respublikasının qanunvericiliyi**

Veteranlar haqqında Azərbaycan Respublikasının qanunvericiliyi bu Qanundan və Azərbaycan Respublikasının sosial-məişət, nəqliyyat xidmətləri, tibbi yardım göstərilməsində və başqa sahələrdə veteranların hüquqlarını və güzəştlərini müəyyənləşdirən digər qanunvericilik aktlarından ibarətdir.

Maddə 3. **Müharibə veteranları**

Aşağıdakılar müharibə veteranları sayılırlar:
İkinci dünya müharibəsi illərində döyüşən orduda (donanmada), partizan birləşmələri tərkibində, gizli fəaliyyətdə Vətənin müdafiəsi uğrunda döyüş əməliyyatlarında iştirak etmiş, habelə başqa ölkələrin ərazisində gedən məhəlli müharibələrdə və hərbi münaqişələrdə hərbi birləşmələrin tərkibində və keçmiş SSRİ Silahlı Qüvvələrinin, Dövlət Təhlükəsizliyi Komitəsinin, Daxili İşlər Nazirliyinin mütəxəssisləri və müşavirləri kimi iştirak etmiş şəxslər;
Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etmiş şəxslər;
1944-cü il yanvarın 1-dən 1951-ci il dekabrın 31-dək Ukraynanın, Belorusiyanın, Baltikyanı respublikaların ərazisində quldur dəstələrinə qarşı silahlı mübarizədə iştirak etmiş şəxslər;
Azərbaycan Respublikasının ərazisində daimi yaşayan, ikinci dünya müharibəsi illərində xarici ölkələrin ərazisində milli orduların, partizan dəstələrinin tərkibində faşist Almaniyasına, onun müttəfiqlərinə və imperialist Yaponiyaya qarşı döyüş əməliyyatlarında iştirak etmiş şəxslər;

İkinci dünya müharibəsi illərində döyüşən cəbhələrin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçiləri;
1941 — 1945-ci illərdə keçmiş Sovet ordusunda (donanmasında), daxili işlər və dövlət təhlükəsizliyi orqanlarında hərbi xidmətdə olmuş, lakin döyüş əməliyyatlarında iştirak etməmiş hərbi qulluqçular; [2]
İkinci dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və “Leninqradın müdafiəsinə görə” medalı, “Leninqrad mühasirəsində yaşayan” döş nişanı ilə təltif edilmiş şəxslərə. [3]
Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarının aparıldığı ərazilərin və dövrlərin siyahısı, habelə Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarının iştirakçılarına aid edilən şəxslərin kateqoriyalarının siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.
**Qeyd:** Bu maddənin birinci hissəsinin üçüncü abzası Azərbaycan Respublikası ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslər istisna olmaqla, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarının aparıldığı dövrdə hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etməyə, fərariliyə və ya digər hərbi cinayətlərə görə məhkum edilmiş (2000-ci il sentyabrın 1-dək qüvvədə olmuş Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 42-ci maddəsinin ikinci hissəsinə əsasən cəzadan azad edilmiş şəxslər istisna olmaqla) və ya barələrində cinayət təqibinə bəraətverici əsaslar olmadan xitam verilmiş və ya amnistiya aktına əsasən cinayət məsuliyyətindən azad edilmiş şəxslərə şamil edilmir.[4]
Maddə 4. **Silahlı Qüvvələrin veteranları**
Azərbaycan Respublikası Silahlı Qüvvələrinin və qanunvericilikdə nəzərdə tutulmuş digər silahlı birləşmələrin sıralarında «(SSRİ Silahlı Qüvvələri və digər silahlı birləşmələrində xidmət müddəti də nəzərə alınmaqla) təqvimlə 25 il və daha çox hərbi xidmət keçmiş (hərbi qulluqçunun şərəfmi ləkələyən xətalar törədilməsinə və ya törədilmiş cinayətə görə məhkəmə tərəfindən hərbi xidməti istisna edən cəzaya məhkum edildiyinə görə ordu sıralarından və ya müvafiq orqanlardan xaric olunanlar istisna olmaqla) Azərbaycan Respublikası vətəndaşları Silahlı Qüvvələrin veteranları sayılırlar. [5]
Maddə 5. **Əmək veteranları**
Dövlət qarşısında xüsusi xidmətləri olan və ya fəxri adlara layiq görülmüş, yaxud ordenlərlə təltif edilmiş uzun illər ictimai əməklə məşğul olmuş və qüvvədə olan qanunvericiliyə müvafiq surətdə yaşa görə pensiya almaq hüququnu qazanmış şəxslər əmək veteranı sayılırlar.
(Çıxarılıb) [6]
Maddə 6. **Veteranların pensiya təminatı**
Veteranlara pensiyalar "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanunu əsasında təyin edilir. **[7]**
Maddə 7. **Veteran adlarının və vəsiqələrinin verilməsi**
Müharibə veteranı, Silahlı Qüvvələrin veteranı və əmək veteranı adlarının verilməsi qaydaları və şərtləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.
Veteranların hər bir kateqoriyası üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən vahid nümunədə vəsiqə təsdiq edilir. Veteranlar üçün nəzərdə tutulmuş güzəştlər veteran vəsiqəsi təqdim edildikdə həyata keçirilir.
Veteran adları və vəsiqələri öz səlahiyyətləri daxilində müvafiq icra hakimiyyəti orqanları tərəfindən verilir.
Veteran statusunu təsdiq edən sənədin bu Qanuna uyğun verilmədiyi aşkar edilərsə, həmin sənədi vermiş müvafiq icra hakimiyyəti orqanı onun geri alınmasını təmin edir.[8]
Maddə 8. **Veteran təşkilatlarının yaradılması**
Veteran təşkilatları müvafiq qanunvericilik aktlarına əsasən yaradılır, dövlət qeydiyyatından keçirilir və fəaliyyət göstərirlər. [9]
Veteran təşkilatı qeydiyyata alındığı andan hüquqi şəxs hesab edilir.
Dövlət orqanları veteran təşkilatlarına öz hüquq və vəzifələrini həyata keçirməkdə hərtərəfli kömək göstərirlər.
Maddə 9. **Əmək fəaliyyətinin davam etdirilməsi**
Veteranlar pensiyasını almaqla əvvəllər işlədikləri müəssisədə, təşkilatda, idarədə, yaxud mülkiyyət formasından asılı olmayaraq başqa müəssisədə əmək fəaliyyətini davam etdirmək, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, hər hansı təsərrüfatçılıq formasına əsaslanan müəssisə yaratmaq hüququna malikdirlər.
Qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, veteranların əmək, sahibkarlıq və başqa ictimai faydalı fəaliyyətinin məhdudlaşdırılmasına yol verilmir.
Bu Qanunla müəyyən edilmiş güzəştlərlə yanaşı, veteranlar pensiyaya çıxdıqdan sonra əmək kollektivinin qərarı ilə mövcud qanunvericiliyə əsasən həmin müəssisədə, təşkilatda, idarədə mənzil

şəraitinin yaxşılaşdırılması, tibbi yardım göstərilməsi, sanatoriya-kurort xidməti və mədəni xidmət sahəsində müəyyənləşdirilmiş güzəştlərdən istifadə edə bilərlər.

Maddə 10. **Veteran təşkilatlarının istehsal fəaliyyətinə təminat verilməsi**

Dövlət orqanları öz səlahiyyətləri daxilində qanunvericiliklə müəyyən edilmiş qaydada veteran təşkilatlarına maliyyə yardımı göstərə bilər, onlara müvafiq büdcələrdən vəsait ayıra bilər, nizamnamə vəzifələrini həyata keçirmək üçün binaları, avadanlığı və başqa əmlakı güzəştli şərtlərlə onların istifadəsinə və ya mülkiyyətinə verə bilərlər.

Veteran təşkilatları müəssisələrinin xammal, texnika və tikinti materialları ilə təmin edilməsinə üstünlük verilir.

(Çıxarılıb) [10]

Maddə 11**. Mənzil-məişət şəraitinin yaxşılaşdırılması**

Veteranlar Azərbaycan Respublikasının mənzil qanunvericiliyində onlar üçün nəzərdə tutulmuş güzəştlərdən istifadə edir, eyni zamanda qaraj, mənzil tikintisi kooperativlərinə və bağçılıq ortaqlıqlarına (birliklərinə) daxil olmaq sahəsində üstünlüklərə malikdirlər.

Müharibə veteranlarının istifadəsində olan dövlət bağları və bağçılıq sahələri əvəzsiz olaraq onların şəxsi mülkiyyətinə verilir.

Maddə 12. **Mənzil, kommunal və rabitə xidmətləri haqqının ödənilməsi**

İkinci Dünya müharibəsi iştirakçılarına, bu Qanunun 3-cü maddəsinin ikinci, dördüncü, beşinci və altıncı abzaslarında qeyd edilən şəxslərdən həlak olmuşların dul arvadlarına müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş qaydada və məbləğdə telefondan (şəhərlərarası və beynəlxalq danışıqlar istisna olmaqla) mənzil, kommunal xidmətlərindən istifadə haqqının ödəmək üçün müavinət verilir. [11]

Maddə 12-1. **(Çıxarılıb)**[12]

Maddə 13. **(Çıxarılıb)**[13]

Maddə 14. **Tibbi xidmət**

İkinci Dünya müharibəsi iştirakçıları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş qaydada tibb müəssisələrinin göndərişi əsasında sanatoriya-kurort müalicəsi alırlar. [14]

Maddə 15. **Dərman və müalicə vasitələri ilə təminat**

İkinci Dünya müharibəsi iştirakçılarına müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş qaydada və məbləğdə dərman və müalicə vasitələri almaq üçün müavinət verilir. [15]

Maddə 16. **Geriatriya yardımı**

Müvafiq icra hakimiyyəti orqanları daimi qulluğa ehtiyacı olan xroniki xəstələr üçün geriatriya kabinetləri, pansionatları, xəstəxanaları vasitəsilə geriatriya yardımı şəbəkəsini təşkil edir və maliyyələşdirirlər. [16]

Maddə 17. **Protezləşdirmə**

İkinci Dünya müharibəsi iştirakçıları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş qaydada protez-ortopediya məmulatları ilə (qiymətli metallardan hazırlanan protezlər istisna olmaqla) təmin edilir və diş protezləri düzəltdirirlər. [17]

Maddə 18. **İctimai nəqliyyatdan istifadə sahəsində veteranlara güzəştlər**

İkinci Dünya müharibəsi iştirakçılarına müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş qaydada və məbləğdə ölkədaxili nəqliyyat vasitələrindən (taksidən başqa) istifadə haqqını ödəmək üçün müavinət verilir. [18]

Maddə 18-1. **(Çıxarılıb)** [19]

Maddə 19. **Müvafiq icra hakimiyyəti orqanlarının və müəssisələrin veteranlara əlavə güzəşt vermək hüququ**

Müvafiq icra hakimiyyəti orqanları, müxtəlif mülkiyyət növləri əsasında fəaliyyət göstərən müəssisələr öz vəsaitləri hesabına veteranların maddi təminatının yaxşılaşdırılmasına yönəldilmiş tədbirlər həyata keçirə bilərlər, müalicə olunmaqda, veteranların həyat və fəaliyyətini asanlaşdıran texniki vasitələr almaqda, mənzilləri təmir etdirməkdə, başqa ehtiyacları ödəməkdə veteranlara yardım göstərə bilərlər. Bundan ötrü müvafiq fondlar yaradıla bilər. [20]

Maddə 20. **Sosial xidmət**

20.1. Müvafiq icra hakimiyyəti orqanları, dövlət qurumları və digər təşkilatlar veteranların həyat və məişəti üçün lazımi şərait yaratmaq məqsədi ilə sosial xidmət müəssisələri, habelə veteranlara sosial xidmətin göstərilməsini təşkil edirlər.

20.2. Veteranlara “Sosial xidmət haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sosial xidmət göstərilir.[21]

Maddə 21. **Veteranların sosial müdafiəsi tədbirlərinin planlaşdırılması və maliyyələşdirilməsi**

Veteranların sosial müdafiəsi tədbirlərini müvafiq icra hakimiyyəti planlaşdırır və veteranların sosial müdafiəsi proqramları respublika dövlət büdcəsinin, *müvafiq icra hakimiyyəti orqanının* vəsaiti hesabına maliyyələşdirilir. [22]

Veteranların respublika təşkilatlarına dövlət büdcəsindən vəsait ayrılır.

Maddə 22. **Veteran təşkilatlarının beynəlxalq əlaqələri**

Veteranların ictimai təşkilatları öz nizamnamələrinə uyğun olaraq qeyri-hökumət xarakterli beynəlxalq birliklərə daxil ola bilər, onlarla bilavasitə əlaqə saxlaya və müqavilələr bağlaya bilərlər.

Dövlət orqanları veteran təşkilatlarına xarici ölkələrin müvafiq təşkilatları ilə əməkdaşlıq etməkdə hərtərəfli yardım göstərə bilərlər.

Maddə 23. **Mərasim xidməti**

Vəfat etmiş veteranlara mərasim xidməti qüvvədə olan qanunvericiliyə müvafiq surətdə göstərilir. Veteranın əvvəl işlədiyi əmək kollektivləri, hərbi komissarlıqlar vəfat etmiş veteranın dəfnində qohumlarına zəruri yardım göstərməlidirlər. Vəfat etmiş tənha veteranları müvafiq icra hakimiyyəti orqanları dövlət büdcəsinin vəsaiti hesabına dəfn edirlər. [23]

Maddə 24. (**Çıxarılıb**)[24]

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər ƏLİYEV.**

Bakı şəhəri, 28 iyun 1994-cü il.
№ 841.

-

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

**1.** 2 may 1995-ci il tarixli 1029 nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikası Ali Sovetinin məlumatı, 1995-ci il, № 9, maddə 177**)

**2.** 20 iyun 1995-ci il tarixli 1067 nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikası Ali Sovetinin məlumatı, 1995-ci il, № 14, maddə 241**)

**3.** 10 oktyabr 1997-ci il tarixli 380-IQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 1, maddə 16**)

**4.** 4 noyabr 1997-ci il tarixli 395-IQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 2, maddə 66**)

**5.** 30 mart 1999-cu il tarixli 644-IQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 5, maddə 283**)

**6.** 4 iyun 1999-cu il tarixli 676-IQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 7, maddə 395**)

**7.** 15 noyabr 2001-ci il tarixli 214-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 12, maddə 731**)

**8.** 5 mart 2004-cü il tarixli 597-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 4, maddə 199**)

**9.** 9 mart 2004-cü il tarixli 603-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 4, maddə 202**)

**10.** 30 aprel 2004-cü il tarixli 643-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 7, maddə 505**)

**11.** 10 iyun 2005-ci il tarixli 925-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 8, maddə 684**)

**12.** 7 aprel 2006-cı il tarixli 90-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-ci il, № 4, maddə 315**)

**13.** 6 mart 2007-ci il tarixli 260-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu(**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 5, maddə 401**)

**14.** 19 oktyabr 2007-ci il tarixli 462-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 11, maddə 1078**)

**15.** 22 fevral 2013-cü il tarixli **571-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 19 mart 2013-cü il, № 61, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 03, maddə 221)**

**16.** 7 aprel 2017-ci il tarixli **558-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 20 may 2017-ci il, № 107, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 5, maddə 689)**

**17.** 31 may 2017-ci il tarixli 703-VQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 24 iyun 2017-ci il, № 135, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 6, maddə 1057**)

## QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 5 mart 2004-cü il tarixli 597-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 4, maddə 199**) ilə Qanunun preambulasında "**daxili işlər**" sözlərindən sonra "**,sərhəd xidməti**" sözləri əlavə edilmişdir.
7 aprel 2017-ci il tarixli **558-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 20 may 2017-ci il, № 107, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 5, maddə 689)** ilə preambulasında "**və milli təhlükəsizlik**" sözləri "**, dövlət təhlükəsizliyi və xarici kəşfiyyat**" sözləri ilə əvəz edilmişdir.

[2] 20 iyun 1995-ci il tarixli 1067 nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikası Ali Sovetinin məlumatı, 1995-ci il, № 14, maddə 241**) ilə 3-cü maddənin yeddinci abzası yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:
~~1941—1945-ci illərdə keçmiş Sovet ordusunda (donanmasında) hərbi xidmətdə olmuş, lakin döyüş əməliyyatlarında iştirak etməmiş hərbi qulluqçular;~~

[3] 2 may 1995-ci il tarixli 1029 nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikası Ali Sovetinin məlumatı, 1995-ci il, № 9, maddə 177**) ilə 3-cü maddənin birinci hissəsinə müvafiq abzas əlavə edilmişdir.

[4] 7 aprel 2006-cı il tarixli 90-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-ci il, № 4, maddə 315**) ilə 3-cü maddəyə aşağıdakı məzmunda ikinci hissə və Qeyd əlavə edilsin.

**[5]** 2 may 1995-ci il tarixli 1029 nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikası Ali Sovetinin məlumatı, 1995-ci il, № 9, maddə 177**) ilə 4-cü maddə yeni redaksiyada verilmişdir.
Əvvəlki redaksiyada deyilirdi:
~~Maddə 4. **Silahlı qüvvələrin veteranları**~~
~~"Hərbi qulluqçuların pensiya təminatı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yaşa və ya xidmət müddətinə görə ehtiyata və ya istefaya buraxılmış hərbi qulluqçular silahlı qüvvələrin veteranları sayılırlar.~~
~~Müharibə və silahlı qüvvələrin veteranlarına veteran adını və sənədlərini müvafiq olaraq Azərbaycan Respublikasının müdafiə, daxili işlər və milli təhlükəsizlik nazirlikləri verirlər.~~
4 noyabr 1997-ci il tarixli 395-IQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 2, maddə 66**) ilə 4-cü maddə yeni redaksiyada verilmişdir.
Əvvəlki redaksiyada deyilirdi:
~~Maddə 4. **Silahlı qüvvələrin veteranları**~~
~~"Hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq, yaşa və ya xidmət müddətinə görə ehtiyata və ya istefaya buraxılmış, pensiya təminatı hüququ olan hərbi qulluqçular silahlı qüvvələrin veteranları sayılırlar.~~
30 mart 1999-cu il tarixli 644-IQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 5, maddə 283**) ilə 4-cü maddədə "**sıralarında**" sözündən sonra "**(SSRİ Silahlı Qüvvələri və digər silahlı birləşmələrində xidmət müddəti də nəzərə alınmaqla)**" sözləri əlavə edilmişdir.

[6] 2 may 1995-ci il tarixli 1029 nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikası Ali Sovetinin məlumatı, 1995-ci il, № 9, maddə 177**) ilə 5-ci maddənin ikinci hissəsi çıxarılmışdır.
Əvvəlki redaksiyada deyilirdi:
~~Əmək veteranı adının verilməsi qaydası və şərtləri haqqında Əsasnaməni Azərbaycan Respublikasının Nazirlər Kabineti təsdiq edir.~~

[7] 6 mart 2007-ci il tarixli **260-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu(**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 5, maddə 401**) ilə 6-cı maddədə "**Vətəndaşların pensiya təminatı haqqında**" sözləri "**Əmək pensiyaları haqqında**" sözləri ilə əvəz edilmişdir.

19 oktyabr 2007-ci il tarixli 462-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 11, maddə 1078**) ilə 6-cı maddəsində **"və "Hərbi qulluqçuların pensiya təminatı haqqında" Azərbaycan Respublikasının qanunları"** sözləri **"Azərbaycan Respublikasının Qanunu"** sözləri ilə əvəz edilmişdir.

[8] 7 aprel 2006-cı il tarixli 90-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-ci il, № 4, maddə 315**) ilə 7-ci maddə aşağıdakı redaksiyada verilsin:

Əvvəlki redaksiyada deyilirdi:
~~Müharibə veteranı, silahlı qüvvələr veteranı və əmək veteranı adlarının verilməsi qaydası və şərtləri haqqında Əsasnaməni və müvafiq vəsiqələrin nümunəsini müvafiq icra hakimiyyəti orqanı təsdiq edir.~~
~~Müharibə və silahlı qüvvələrin veteranlarına müvafiq veteran adını və sənədlərini uyğun olaraq müvafiq icra hakimiyyəti orqanları verirlər.~~
~~Əmək veteranlarına veteran adını və sənədlərini müvafiq icra hakimiyyəti orqanları verirlər.~~

[9] 10 iyun 2005-ci il tarixli 925-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 8, maddə 684**) ilə 8-ci maddəsinin birinci hissəsindən "**İctimai birliklər haqqında" Azərbaycan Respublikasının Qanununa və digər**" sözləri çıxarılmışdır.

[10] 10 oktyabr 1997-ci il tarixli 380-IQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 1, maddə 16**) ilə 10-cu maddəsinin üçüncü hissəsi çıxarılmışdır.
Əvvəlki redaksiyada deyilirdi:
~~Müharibə, əmək, silahlı qüvvələr veteranlarının müəssisələrində işləyənlərin sayının 70 faizi veteranlardan ibarət olduqda həmin müəssisələr mənfəət vergisi ödəməkdən azad edilir.~~
30 aprel 2004-cü il tarixli 643-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 7, maddə 505**) ilə 10-cu maddənin dördüncü hissəsi çıxarılmışdır.
Əvvəlki redaksiyada deyilirdi:
~~Veteran təşkilatları qeydiyyata alınarkən dövlət rüsumu ödəməkdən azad edilirlər.~~

[11] 2 may 1995-ci il tarixli 1029 nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikası Ali Sovetinin məlumatı, 1995-ci il, № 9, maddə 177**) ilə 12-ci maddə yeni redaksiyada verilmişdir.
Əvvəlki redaksiyada deyilirdi:
~~Maddə 12. **Mənzil, kommunal və rabitə xidmətləri haqqının ödənilməsi**~~
~~Uşaqları olmayan, habelə uşaqlarından və başqa qohumlarından ayrı yaşayan müharibə veteranlarına, işlƏməyən əmək və silahlı qüvvələr veteranlarına (kişilər 60, qadınlar 55 yaşına çatdıqda) qanunvericiliklə müəyyən edilmiş normalar daxilində mənzil haqqının, telefon çəkilməsi, telefondan istifadə haqqının (şəhərlərarası və beynəlxalq danışıqlar istisna olmaqla) və kommunal xidmətlərin (istilik, qaz, su, elektrik enerjisi) haqqının ödənilməsində 50 faiz güzəşt, mərkəzi isitmə sistemi olmayan evlərdə yaşayanlara isə əhaliyə satmaq üçün müəyyənləşdirilmiş normalar daxilində əldə edilən yanacağın dəyərinin ödənilməsində 50 faiz güzəşt verilir.~~
~~Mənzil haqqının, kommunal xidmətlərin, telefondan istifadə haqqının, yanacağın dəyərinin ödənilməsində fərq dövlət büdcəsinin vəsaitindən verilir.~~
20 iyun 1995-ci il tarixli 1067 nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikası Ali Sovetinin məlumatı, 1995-ci il, № 14, maddə 241**) ilə 12-ci maddə yeni redaksiyada verilmişdir.
Əvvəlki redaksiyada deyilirdi:
~~Maddə 12. **Mənzil, kommunal və rabitə xidmətləri haqqının ödənilməsi**~~
~~Müharibə veteranlarına, habelə uşaqlarından və başqa qohumlarından ayrı yaşayan və işləməyən silahlı qüvvələr veteranlarına və əmək veteranlarına qanunvericiliklə müəyyən edilmiş normalar daxilində mənzil, telefon çəkilməsi, telefondan istifadə (şəhərlərarası və beynəlxalq danışıqlar istisna~~

~~olmaqla) və kommunal xidmətlər (istilik, qaz, su, elektrik enerjisi) üçün haqqın ödənilməsində 30 faiz güzəşt, mərkəzi isitmə sistemi olmayan evlərdə yaşayanlara isə, əhaliyə satmaq üçün müəyyənləşdirilmiş normalar daxilində əldə edilən yanacağın dəyərinin ödənilməsində 50 faiz güzəşt edilir.~~
~~Mənzil, kommunal xidmətlər, telefondan istifadə üçün haqqın və yanacağın dəyərinin ödənilməsində fərq dövlət büdcəsinin vəsaiti hesabına ödənilir.~~
15 noyabr 2001-ci il tarixli 214-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 12, maddə 731**) ilə 12-ci maddənin mətni yeni redaksiyada verilmişdir.
Əvvəlki redaksiyada deyilirdi:
~~Müharibə veteranları, həmçinin həlak olmuş, yaxud sonralar vəfat etmiş döyüşçülərin dul arvadları, onlarla birgə yaşayan və yaşayış yeri üzrə qeydiyyatda olan ailə üzvləri ilə birlikdə mənzil, kommunal xidmətlər, telefon çəkilməsi, telefondan istifadə (şəhərlərarası və beynəlxalq danışıqlar istisna olmaqla) haqqını ödəməkdən azad edilirlər.~~
~~İşləməyən silahlı qüvvələr veteranlarına, həmçinin ali və orta peşə-ixtisas təhsili müəssisələrinin əyani şöbələrində təhsil alanlar istisna edilməklə, əmək qabiliyyəti uşaqlarından və başqa qohumlarından ayrı yaşayan və işləməyən əmək veteranlarına qanunvericiliklə müəyyən edilmiş normalar daxilində mənzil, kommunal xidmətlər, telefon çəkilməsi, telefondan istifadə (şəhərlərarası və beynəlxalq danışıqlar istisna olmaqla) haqqının ödənilməsində 50 faiz güzəşt, mərkəzi isitmə sistemi olmayan, evlərdə yaşayanlara isə əhaliyə satmaq üçün müəyyənləşdirilmiş normalar daxilində əldə edilən yanacağın dəyərinin ödənilməsindən 50 faiz güzəşt edilir. [11]~~
~~Mənzil, kommunal xidmətlər, telefondan istifadə haqqının və yanacağın dəyərinin ödənilməsində fərq dövlət büdcəsinin vəsaiti hesabına ödənilir.~~

[12] 20 iyun 1995-ci il tarixli 1067 nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikası Ali Sovetinin məlumatı, 1995-ci il, № 14, maddə 241**) ilə Qanuna 12-1 maddə əlavə edilmişdir.
30 aprel 2004-cü il tarixli 643-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 7, maddə 505**) ilə 12-1-ci maddə çıxarılmışdır.
Əvvəlki redaksiyada deyilirdi:
~~Maddə 12-1. **Rüsumların ödənilməsində güzəştlər**~~
~~Müharibə veteranları, həmçinin həlak olmuş, yaxud sonralar vəfat etmiş döyüşçülərin dul arvadları mülki-hüquqi əqdlərin bağlanması zamanı və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsində nəzərdə tutulan hallarda dövlət rüsumlarını ödəməkdən azad edilirlər.~~

[13] 15 noyabr 2001-ci il tarixli 214-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 12, maddə 731**) ilə 13-cü maddə çıxarılmışdır.
Əvvəlki redaksiyada deyilirdi:
~~Maddə 13. **Ticarət-məişət xidmət**~~
~~Veteranlara ən zəruri sənaye və ərzaq malları ilə ticarət-məişət xidmətini təşkil etmək üçün yerli icra hakimiyyəti orqanları xüsusi mağazalar, bölmələr, şöbələr yaradır, malların müəyyən qismini məqsədli təyinatla buraya göndərir, hərəkət imkanları məhdud olan veteranlara isə evdə xidməti təşkil edirlər.~~
~~Kolxozların idarə heyəti, sovxozların müdiriyyəti əmək qabiliyyəti olmayan tənha veteranlara zəruri ərzaq mallarının alınmasında, mal-qaranın yemlə təmin edilməsində, habelə mənzillərin, təsərrüfat binalarının təmirində və yanacaq gətirilməsində kömək göstərmək üçün tədbirlər görürlər.~~

[14] 15 noyabr 2001-ci il tarixli 214-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 12, maddə 731**) ilə 14-cü maddənin mətni yeni redaksiyada verilmişdir.
Əvvəlki redaksiyada deyilirdi:
~~Veteranlar işlədikləri (xidmət etdikləri) dövrdə təhkim olunduqları səhiyyə müəssisələrində tibbi yardım almaq hüququnu, habelə sanatoriya-kurort müalicəsi hüququnu pensiyaya çıxdıqdan sonra da saxlayırlar.~~
~~Sanatoriya-kurort müalicəsinin qaydasını səhiyyə, sosial təminat orqanları və ictimai təşkilatlar müəyyənləşdirirlər.~~
~~Tibb müəssisələrinin rəyinə əsasən veteranlar dövlət büdcəsinin vəsaiti hesabına xüsusi bərpa mərkəzlərində bərpa müalicəsi hüququna malikdirlər.~~

[15] 15 noyabr 2001-ci il tarixli 214-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 12, maddə 731**) ilə 15-ci maddənin mətni yeni redaksiyada verilmişdir.
Əvvəlki redaksiyada deyilirdi:
~~Bu Qanunun 3-cü maddəsində sadalanan müharibə veteranlarına dərman və müalicə vasitələri həkimin nüsxəsi əsasında pulsuz verilir.~~
~~Digər veteranlara (kişilər 70, qadınlar 60 yaşına çatdıqda) dərman və müalicə vasitələri həkimin nüsxəsi əsasında 50 faiz güzəştlə verilir.~~
~~Ödənişdəki fərq dövlət büdcəsinin vəsaitindən verilir.~~

[16] 30 mart 1999-cu il tarixli 644-IQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 5, maddə 283**) ilə 16-cı maddədə "**yerli**" sözü "**müvafiq**" sözü ilə əvəz edilmişdir.

[17] 15 noyabr 2001-ci il tarixli 214-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 12, maddə 731**) ilə 17-ci maddənin mətni yeni redaksiyada verilmişdir.
Əvvəlki redaksiyada deyilirdi:
~~Müvafiq icra hakimiyyəti orqanları müharibə veteranlarının qol-qıçlarinin, ağiz boşluğunun protezləşdirilməsini (qiymətli metaldan olan protezlərdən başqa), eşitmə və görmə orqanlarının protezləşdirilməsini müəyyənləşdirilmiş qaydada birinci növbədə həyata keçirirlər. [17]~~
~~Protezləşdirmənin bu növləri üçün çəkilən xərclər dövlət büdcəsinin vəsaiti hesabına ödənilir.~~

[18] 15 noyabr 2001-ci il tarixli 214-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 12, maddə 731**) ilə 18-ci maddənin mətni yeni redaksiyada verilmişdir.
Əvvəlki redaksiyada deyilirdi:
~~Veteranlar şəhər ictimai sərnişin nəqliyyatının bütün növlərində (taksidən başqa) pulsuz gedib-gəlmək hüququna malikdirlər.~~
~~Müharibə veteranları (kişilər 70, qadınlar 65 yaşına çatdıqda) respublika hüdudları daxilində ildə bir dəfə dəmiryol, hava və dəniz nəqliyyatında pulsuz gedib-gəlmək hüququna malikdirlər.~~
~~Veteranlara verilən güzəştlərlə əlaqədar nəqliyyat müəssisələrinin xərcləri dövlət büdcəsinin vəsaiti hesabına ödənilir~~.

[19] 20 iyun 1995-ci il tarixli 1067 nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikası Ali Sovetinin məlumatı, 1995-ci il, № 14, maddə 241**) ilə Qanuna 18-1 maddə əlavə edilmişdir.
15 noyabr 2001-ci il tarixli 214-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 12, maddə 731**) ilə 18-1-ci maddə çıxarılmışdır.
Əvvəlki redaksiyada deyilirdi:
~~Maddə 18-1. **İkinci dünya müharibəsi illərində arxa cəbhədə əməyinə görə fərqlənmiş şəxslərə güzəştlər**~~
~~1941-1945-ci illərdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallar ilə təltif edilmiş şəxslər bu Qanunun 12-ci maddəsinin birinci hissəsində, 12-1-ci və 13—18-ci maddələrində veteranlar üçün nəzərdə tutulan bütün güzəştlərdən və imtiyazlardan istifadə etmək hüququna malikdirlər.~~

[20] 30 mart 1999-cu il tarixli **644-IQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 5, maddə 283**) ilə 19-cu maddənin adında və mətnində "**yerli**" sözü "**müvafiq**" sözü ilə əvəz edilmişdir.

6 mart 2007-ci il tarixli **260-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu(**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 5, maddə 401**) ilə 19-cu maddədə "**pensiyalarına əlavələr edə bilərlər və bu əlavələrin məbləğini dolanacaq xərclərinin səviyyəsi ilə əlaqədar dəyişdirə bilər**" sözləri "**maddi təminatının yaxşılaşdırılmasına yönəldilmiş tədbirlər həyata keçirə bilərlər**" sözləri ilə əvəz edilmişdir.

[21] 30 mart 1999-cu il tarixli 644-IQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 5, maddə 283**) ilə 20-ci maddənin birinci

hissəsində "**yerli icra hakimiyyəti orqanları, əhalinin sosial müdafiəsi orqanları**" sözləri "**müvafiq icra hakimiyyəti orqanları**" sözləri ilə əvəz edilmişdir.

22 fevral 2013-cü il tarixli **571-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 19 mart 2013-cü il, № 61, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 03, maddə 221)** ilə 20-ci maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:
~~Maddə 20. **Evdə sosial-məişət xidməti, pansionatlar və internat evlər**~~
~~Müvafiq icra hakimiyyəti orqanları, müəssisələr, təşkilatlar, idarələr, kəndli və fermer təsərrüfatları, kolxozlar veteranların həyat və məişəti üçün lazımi şərait yaratmaq məqsədilə sosial-məişət xidməti evləri, pansionatlar, habelə onlara evdə sosial-məişət xidməti təşkil edirlər.~~
~~Başqasının daimi qulluğuna ehtiyacı olan veteranlar üçün internat evlər təşkil olunur.~~

**[22]** 30 mart 1999-cu il tarixli 644-IQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 5, maddə 283**) ilə 21-ci maddənin birinci hissəsində "**Azərbaycan Respublikasının Nazirlər Kabineti, yerli icra hakimiyyəti**" sözləri "**müvafiq icra hakimiyyəti**" sözləri ilə əvəz edilmişdir.
9 mart 2004-cü il tarixli 603-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 4, maddə 202**) ilə 21-ci maddəsinin birinci hissəsində "**respublika büdcəsinin və yerli büdcələrin**" sözləri "**dövlət büdcəsinin**" sözləri ilə əvəz edilmişdir.
31 may 2017-ci il tarixli 703-VQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 24 iyun 2017-ci il, № 135, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 6, maddə 1057**) ilə 21-ci maddəsinin birinci hissəsində "**Azərbaycan Respublikası Sosial Müdafiə Fondunun**" sözləri "**müvafiq icra hakimiyyəti orqanının**" sözləri ilə əvəz edilmişdir.

**[23]** 30 mart 1999-cu il tarixli 644-IQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 5, maddə 283**) ilə 23-cü maddədə "**mənzil-kommunal təsərrüfatı orqanları**" sözləri "**müvafiq icra hakimiyyəti orqanları**" sözləri ilə əvəz edilmişdir.
9 mart 2004-cü il tarixli 603-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 4, maddə 202**) ilə 23-cü maddəsində "**yerli büdcənin**" sözləri "**dövlət büdcəsinin**" sözləri ilə əvəz edilmişdir.

**[24]** 2 may 1995-ci il tarixli 1029 nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikası Ali Sovetinin məlumatı, 1995-ci il, № 9, maddə 177**) ilə 24-cü maddə çıxarılmışdır.

Əvvəlki redaksiyada deyilirdi:
~~Maddə 24. **Veteran günü**~~
~~Hər il 9 may Veteran günü kimi qeyd edilir.~~